# Cəbhədə şəhid olan əsgərimiz Biləsuvarda dəfn edilib



Cəbhənin Füzuli istiqamətində erməni silahlı qüvvələrinin təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olan Milli Ordumuzun 23 yaşlı döyüşçüsü Dəmirli Hüseyn Zeynal oğlunun üçrəngli bayrağa bürünmüş cənazəsi ötən gün axşam saatlarında doğulduğu Biləsuvar şəhərinə gətirilib. Aprelin 5-də şəhid şəhər qəbiristanlığında dəfn olunub.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri və döyüş yoldaşları, ictimaiyyətin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edənlər, mərhumun ailə üzvləri və yaxınlarına dərin hüznlə başsağlığı verib, şəhidin keçdiyi döyüş yolundan danışıblar. Bildirilib ki, qüdrətli Azərbaycan Ordusu düşmənə hər an tutarlı cavab verməyə hazırdır, Vətən yolunda canından keçən qəhrəman Azərbaycan oğlanlarının xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.